# AZƏRBAYCAN CÜDO FEDERASİYASININ İDMAN TƏŞKİLATLARININ LİSENZİYALAŞDIRILMASI ÜZRƏ QAYDALAR



VERSİYA: 15 AVQUST 2022

**“Azərbaycan Cüdo Federasiyası” İctimai Birliyinin**
**İdman təşkilatlarının lisenziyalaşdırılması üzrə qaydalar**

**Maddə 1. Məqsədlər**

1.1. Azərbaycan Cüdo Federasiyası İctimai Birliyi (ACF) tərəfindən hazırlanmış “İdman təşkilatlarının lisenziyalaşdırılması üzrə qaydalar”ın məqsədləri aşağıdaklardır:

1.1.1. Azərbaycanda cüdonun bütün aspektlərinin stimullaşdırılması, daha da təkmilləşdirilməsi, hər bir klubda gənc idmançıların sayının və fiziki hazırlığının artırılması, onlara diqqət və qayğı göstərilməsi kimi üstün istiqamətlərin daim inkişaf etdirilməsi;

1.1.2. İdman təşkilatlarının idarəetmə səviyyəsinin inkişaf etdirilməsi;

1.1.3. İdman təşkilatlarının inkişafı üçün mümkün resurslardan effektiv istifadə;

1.1.4. İdman təşkilatlarının vahid məlumat bazasının yaradılması;

1.1.5. 30 iyun 2009-cu il tarixli, 847-IIIQ nömrəli “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası qanununun müvafiq müddəalarından irəli gələn prinsiplərin tətbiqi.

**Maddə 2. Tətbiq sahələri**

2.1. Bu qaydalar ACF tərəfindən tanınan rəsmi yarışlarda iştirak etmək istəyən və ACF-də qeydiyyatdan keçmiş bütün yerli idman təşkilatlarına tətbiq edilir.

2.2. Bu qaydalar yerli idman təşkilatlarının Beynəlxalq Cüdo Federasiyasının klub yarışlarında, həmçinin ACF tərəfindən tanınan rəsmi yarışlarda iştirak ilə bağlı lisenziyalaşdırılma prosesində iştirak edən tərəflərin hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir.

2.3. Bu qaydalar eyni zamanda ACF-nin lisenziar qismində çıxış etməsi üçün yerinə yetirilməli olan minimum tələblər və idman təşkilatlarının lisenziyalaşdırılması üzrə meyarları qiymətləndirərkən yerinə yetirəcəyi minimum prosedurlar və lisenziyanın əldə olunması məqsədilə idman təşkilatının yerinə yetirməli olduğu idman, infrastruktur, kadr və hüquq meyarları ilə bağlı minimum tələbləri müəyyən edir.

**Maddə 3. Terminlərin müəyyən edilməsi**

3.1. Bu qaydalarda terminlərin aşağıdakı anlayışları tətbiq olunur:

3.1.1. **İdman təşkilatı** – klublar, ictimai birliklər, uşaq gənclər idman məktəbləri, cəmiyyətlər, olimpiya kompleksləri, liseylər, mərkəzlər.

3.1.2. **Lisenziar** – İdman təşkilatlarının lisenziyalaşdırma prosesini idarə edən və lisenziya verən orqandır. Mövcud Qaydalara əsasən Azərbaycanda bu təşkilat Azərbaycan Cüdo Federasiyasıdır (ACF).

3.1.3. **Lisenziya iddiaçısı** – ACF lisenziyası almaq üçün ərizə verən hüquqi şəxs (idman təşkilatı).

3.1.4. **Lisenziya meneceri** – Lisenziyalaşdırma Komitəsinin rəhbəri.

**Maddə 4. ACF tərəfindən tanınan rəsmi yarışlar**

4.1. Bu qaydaların məqsədi üçün aşağıdakı yarışlar ACF tərəfindən tanınan rəsmi yarışlar hesab olunur:

4.1.1. Azərbaycan çempionatları (müxtəlif yaş qrupları üzrə);

4.1.2. Azərbaycan birincilikləri (müxtəlif yaş qrupları üzrə);

4.1.3. Şəhər və rayon çempionatı və birincilikləri (müxtəlif yaş qrupları üzrə);

4.1.4. Bölgələr üzrə yarışlar;
4.1.5. ACF-in razılığı ilə keçirilən digər yarışlar;
4.1.6. ACF tərəfindən tanınan digər dövri yarışlar.

4.2. İdman təşkilatları tərəfindən keçirilən yarışlar ən azı 1 (bir) ay öncə ACF-yə müraciət edilərək razılaşdırılmalı, yarışın əsasnaməsi (əsasnamədə 1 yaş həddi olmalı, idmançı sayına görə yarışın gün sayı təyin olunmalıdır) təqdim edilməli, yaş həddinə və proqrama uyğunluğa riayət olunmalıdır.

4.3. İdman təşkilatları tərəfindən keçirilən yarışlar ACF tərəfindən razılaşdırılmadan keçirildiyi təqdirdə, həmin yarış rəsmi sayılmır və ACF tərəfindən tanınmır.

**Maddə 5. İdman meyarları**

5.1. ACF lizensiyasının əldə olunması üçün idman təşkilatlarının idman meyarları ilə bağlı yerinə yetirməli olduğu minimum tələblər aşağıdakılardır:

5.1.1. Lisenziya iddiaçısı (bundan sonra İddiaçı) ACF tərəfindən keçirilən müvafiq yarışlarda iştirak etməli;

5.1.2. Lisenziya iddiaçısı hər 6 aydan bir bütün idmançılarının tibbi müayinədən keçməsi barədə ACF-ə arayış təqdim etməlidir;

5.1.3. Lisenziya iddiaçısı ACF-nin tələb etdiyi hesabat formasını* şəffaf şəkildə və vaxtında təmin etməli;

5.1.4. Lisenziya iddiaçısı dəvət olunduğu halda ACF tərəfindən və ya onun iştirakı ilə keçirilən yığıncaqlarda və ya hakimlik məsələlərinə dair digər tədbirlərdə iştirak etməli;

5.1.5. Lisenziya iddiaçısı qanunvericilik ilə müəyyən edilmiş qaydada uşaq və gənc idmançılarının hüquq və mənafelərini müdafiə etmək, sağlamlıqlarını qorumaq, eləcə də iddiaçı tərəfindən təşkil edilən idman tədbirlərində bütün idmançıların təhlükəsiz şəraitdə iştirakını təmin etmək üçün tədbirlər planı hazırlamalı və tətbiq etməli;

5.1.6. Lisenziya iddiaçısı öz məşqçi və idmançılarını respublikadan kənar hər hansı bir yarışa göndərdiyi halda ilk öncə ACF-yə məlumat verməli və müvafiq rəy əldə etməlidir.

**Maddə 6. İnfrastruktur meyarları**

6.1. ACF lizensiyasının əldə olunması üçün idman təşkilatlarının infrastruktur meyarları ilə bağlı yerinə yetirməli olduğu minimum tələblər aşağıdakılardır:

6.1.1. məşq zalları minimum 50 kvadrat metr ölçüdə olmalı;

6.1.2. məşq zallarında ciddi zədələrə və qəzalara səbəb ola biləcək dirək, sütun və bənzər kəskin kənarlı səthlər yumuşaq örtüklə örtülməli;

6.1.3. Zalın məşq prosesi keçirilən hissəsi Beynəlxalq Cüdo Federasiyasının standartlarına uyğun tatami, digər hissələri isə xalça, parket, keramika və bənzər səthlərlə örtülü olmalı;

6.1.4. sahəsi 150 kvadrat metrə qədər olan məşq zallarının minimum 1 geyinib-soyunma otağı, sahəsi 150 kvadrat metrdən çox olan məşq zallarının isə qadın və kişilərin geyinib soyunma otaqları ayrı olmaq şərtilə minimum 2 geyinib-soyunma otağı olmalıdır. Hər bir soyunub-geyinmə otağının minimum bir sanitar qovşağı (tualet və duş kabinəsi daxil olmaqla) olmalı, otaqlar kifayət sayda qarderob, asılqan və oturacaqlarla təmin olunmalı;

6.1.5. məşq zalının isitmə və işıqlandırma sistemi, yanğınsöndürmə cihazı və ilkin tibbi yardım çantası olmalı;

6.1.6. zalın havalandırılması üçün pəncərə, aspirator, ventilyator və ya xüsusi havalandırma sistemi olmalı.

**Maddə 7. Kadr meyarları**

7.1. ACF lizensiyasının əldə olunması üçün lisenziya iddiaçısının kadr ilə bağlı yerinə yetirməli olduğu minimum tələblər aşağıdakılardır:

7.1.1. lisenziya iddiaçısının məşqçi və administrativ heyəti Azərbaycan Respublikasının vətəndaşlığına və ya Azərbaycan Respublikası ərazisində yaşamaq və iş icazəsinə malik olmalı;

7.1.2. lisenziya iddiaçısının məşqçi və administrativ heyəti ACF tərəfindən və ya onun iştirakı ilə keçirilən müvafiq təkmilləşdirmə kurslarını bitirməlidir.

**Maddə 8. Hüquq meyarları**

8.1. ACF lizensiyasının əldə olunması üçün idman təşkilatlarının hüquq ilə bağlı yerinə yetirməli olduğu minimum tələblər aşağıdakılardır:

8.1.1. Dövlət strukturlarının tabeliyində olan idman təşkilatları istisna olmaqla digər idman təşklilatları Azərbaycan Respublikasında müvafiq qaydada dövlət qeydiyyatından keçməli;

8.1.2. Azərbaycan Respublikası ərazisində keçirilən rəsmi ACF yarışlarında və ya ACF-nin tanıdığı turnirlərdə iştirak edə bilmək üçün idman təşkilatları ACF-nin etibarlı lisenziyasına malik olmalı;

8.1.3. Cüdo idman növü üzrə ACF tərəfindən tərtib olunan və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən müvafiq il üçün təsdiq olunan əsasnamələrdə, digər yarış və turnirlərdə qeyd olunmuş yaş həddinə uyğunluq və yarış proqramına əməl etməli;

8.2. İddiaçı ACF lisenziyasını əldə etmək üçün aşağıdakı sənədləri və məlumatları təqdim etməlidir;

8.2.1. Nizamnamənin və ya əsasnamənin notarial qaydada təsdiq olunmuş surəti;

8.2.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyində, İqtisadiyyat Nazirliyində və ya digər müvafiq dövlət strukturlarında qeydiyyata alınmasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;

8.2.3. ACF-nin təqdim etdiyi qeydiyyat bazasında müvafiq ilkin və dövri məlumatların doldurulması və yüklənməsi (anket və hesabat forması);

8.2.4. ACF-yə ünvanlanmış müraciət məktubu.

**Maddə 9. Lisenziyalaşdırma prosesi**

9.1. Cüdo idman növü üzrə fəaliyyət göstərən idman təşkilatlarının ACF lisenziyasını əldə etməsi mütləqdir. Lisenziyanın alınması üçün iddiaçı tələb olunan sənədləri hazırlayaraq lisenziya@judo.az email ünvanına göndərməlidir. Tələb olunan sənədlərin siyahısı:

9.1.1. İdman təşkilatının lisenziya müraciəti üçün anket forması*.

9.1.2. İdman təşkilatının məşq zalının fotoları.

9.1.3. İdman təşkilatının nizamnaməsinin və ya əsasnaməsinin bütün səhifələrinin skan olunmuş fotosu.

9.1.4. İdman təşkilatının Azərbaycan Respublikası Ədliyyə Nazirliyində, İqtisadiyyat Nazirliyində və ya hər hansı digər müvafiq dövlət strukturlarında qeydiyyata alınmasını təsdiq edən sənədin bütün səhifələrinin skan olunmuş fotosu.

9.2. Sənədlər göndərildikdən sonra lisenziya iddiaçısı müraciətinə baxılmasını gözləməlidir. ACF 1 (bir) aydan gec olmamaq şərtilə müraciətə baxmalı və yazılı qərar qəbul etməlidir. Yazılı qərara aşağıdakılar daxil edilir:

9.2.1. Lisenziyalaşdırma Komitəsinin üzvlərinin adları;

9.2.2. Lisenziya iddiaçısının adı;

9.2.3. Lisenziyalaşdırma Komitəsinin qərarı və həmin qərarın verilməsinin səbəbləri;

9.2.4. Qərarın verildiyi tarix, yer və Lisenziyalaşdırma Komitəsi sədrinin (lisenziyalaşdırma və klublarla iş üzrə menecer) imzası.

9.3. ACF cüdo idman növünün inkişafı istiqamətində görülən tədbirlər planına uyğun olaraq lisenziyalaşdırma meyarları üzrə tələblərin yerinə yetirilməsində çatışmazlıqlar olduğu halda lisenziya iddiaçısına onların aradan qaldırılmasına 6 ay müddətində möhlət vermək və dəstək göstərmək şərtilə lisenziya vermək hüququna malikdir.

9.4. ACF istənilən vaxt iddiaçının uyğunluq auditini aparmaq hüququnu özündə saxlayır. Uyğunluq auditinin məqsədi iddiaçılar tərəfindən öhdəliklərin tam yerinə yetirildiyinə və lisenziya ilə bağlı son qərarın qəbul edilməsinin düzgün olduğuna əmin olmaqdır.

**Maddə 10. Lisenziyalaşdırma üzrə inzibati orqan**

10.1. Lisenziar (ACF) lisenziyalaşdırma üzrə inzibati orqana cavabdeh olan lisenziya menecerini təyin etməlidir.

10.2. Lisenziyalaşdırma üzrə inzibati orqanın vəzifələrinə aşağıdakılar daxildir:

10.2.1. ACF-də qeydiyyatdan keçmiş idman təşkilatlarının lisenziyalaşdırılması prosesinin hazırlanması, tətbiqi, inkişaf etdirilməsi və lisenziyalaşdırma üzrə inzibati orqan tərəfindən qaydalara ediləcək dəyişikliklərlə bağlı lisenziya iddiaçılarının məlumatlandırılması;

10.2.2. Lisenziyalaşdırma prosesində iddiaçılara köməkliyin göstərilməsi, məsləhətlərin verilməsi və monitorinqlərin aparılması;

10.2.3. iddiaçılardan daxil olan sənədləri qəbul etmək və onları tələb olunan meyarlara müvafiq yoxlamaq;

10.2.4. iddiaçıların müvafiq meyarlara aid olan sənədlərinin yoxlanılmasının nəticələrinə dair rəhbərliyə hesabat hazırlayıb təqdim etmək.

10.3. ACF-nin lisenziyalaşdırma üzrə inzibati orqanının tərkibi ən azı aşağıdakı kimi olmalıdır:

10.3.1. lisenziyalaşdırma və klublarla iş üzrə menecer;

10.3.2. idman və infrastruktur meyarları üzrə ekspert;

10.3.3. kadr və hüquq meyarları üzrə ekspert.

**Maddə 11. Lisenziyanın etibarlığı**

11.1. İdman təşkilatlarının lisenziyası qüvvəyə mindiyi tarixdən 5 (beş) il müddətində etibarlı sayılır. Müddəti bitmiş lisenziyalar qüvvədən düşmüş hesab edilir.

**Maddə 12. Lisenziyanın yenilənməsi**

12.1. İddiaçı tərəfindən lisenziyanın etibarlılıq müddətlərinin bitməsinə ən azı 3 (üç) ay qalmış onun yenilənməsi məqsədi ilə ACF-yə müraciət etməlidir.

12.2. Lisenziyanın etibarlılıq müddətinin bitməsi və vaxtında yenilənməsi ilə bağlı görüləcək işlərə, təqdim olunan sənədlərdə məlumatların düzgünlüyünə görə iddiaçı məsuliyyət daşıyır.

**Maddə 13. Lisenziya qaydalarının pozulması**

13.1. İdman təşkilatları bu təlimatın maddələrinə, ACF-in etika məcəlləsinə*, nizam-intizam qaydalarına və digər müvafiq qaydalara zidd davranışlar edərsə, ACF-

Azərbaycan Cüdo Federasiyası

nin lisenziyalaşdırma üzrə inzibati orqanı və nizam intizam komitəsinin ortaq qərarı ilə müvafiq sanksiyalar tətbiq oluna və ya onların lisenziyası ləğv oluna bilər.

*** Qaydalara aid əlavələr**

**Əlavə 1** – İdman təşkilatlarının anket və hesabat forması;
**Əlavə 2 –** Etika məcəlləsi;
**Əlavə 3 –** Lisenziya nümunəsi.